**Qəri Counz, bp-nin Azərbaycan, Gürcüstan, Türkiyə üzrə regional prezidenti**

**Cənub Qaz Dəhlizi Məşvərət Şurasının IX iclası**

**Gülüstan Sarayı, 3 fevral 2023-cü il**

# "Şahdəniz – bu günün və sabahın layihəsi"

## Giriş

- Hörmətli həmsədrlər, xanımlar və cənablar! Hər vaxtınız xeyir.
- Bu gün burada iştirak etməkdən çox məmnunam.
- Hər il keçirilən bu toplantının əhəmiyyəti getdikcə artır.
- Bunun da səbəbi var.

## 1-ci slayd – Etibarlı enerji təchizatçısı

- Son görüşümüzdən bəri dünya çox dəyişib.
- Pandemiya, münaqişələr, enerji böhranı, indi isə dünya iqtisadiyyatında yaranmış çətinliklər.
- Bütün bunların nəticəsində, enerjinin rolu indi fərqli prizmadan görünür.
- Xalis sıfıra çatmaq hələ də əsas məsələ kimi diqqət mərkəzindədir.
- Lakin, insanlar və hökumətlər indi özlərini təmin etmək üçün enerjini haradan və hansı qiymətə əldə edə biləcəklərini düşünmək məcburiyyətindədirlər.
- Dünyanın **təhlükəsiz, əlçatan və daha az karbonlu enerjiyə** ehtiyacı var.
- Bu isə **Cənub Qaz Dəhlizi və Şahdəniz kimi layihələrin əhəmiyyətini daha da artırır**.

– Çünki bu kimi layihələr qeyd olunan ehtiyacların üçünü də təmin etməyə kömək edir.

**2-ci slayd – Təhlükəsiz və etibarlı fəaliyyət**

– Məmnuniyyətlə bildirmək istəyirəm ki, **Şahdəniz layihəsi möhtəşəm göstəricilərlə fəaliyyət göstərməkdədir**.
– 2022-ci ildə bu nəhəng yataqdan 25 milyard kubmetrdən çox qaz hasil edilib ki, bu da planlaşdırılandan artıqdır.
– Bu fenomenal göstərici isə demək olar ki, **100% qurğu, quyu və ixrac etibarlılığı və dünya səviyyəli əməliyyat səmərəliliyi ilə təhlükəsiz şəkildə** əldə olunub.
– Bu gün Şahdəniz bp-nin ən böyük qaz hasilatı yatağı olaraq qalmaqdadır.
– Hazırda onun qurğuları gündə təxminən 74 milyon standart kubmetr qaz hasilatı gücünə malikdir.
– Ötən ilin ortalarında biz Şahdənizdə ikinci dərinsulu cinahı, cənub-qərb cinahını işə saldıq.
– Və ildə 26 milyard kubmetr qaz ən yüksək sabit hasilat səviyyəsinə çatmaq istiqamətində işimizi davam etdiririk.

**3-cü slayd – Sualtı hasilat sisteminin genişləndirilməsi**

– Bu məqsədlə biz indi **əsas diqqəti qalan sualtı tikinti işlərinə və quyu proqramımıza yönəltmişik**.
– Şahdəniz sualtı hasilat sistemi təxminən 200 kvadrat kilometrlik nəhəng bir ərazini əhatə edir.

- Bu sistem 7000 metr dərinlikdə yerləşən laylardan qaz və kondensatı Şahdəniz platformalarına, oradan isə Səngəçal terminalına çatdıran ən müasir sualtı texnologiyalar və mürəkkəb infrastrukturdan ibarətdir.
- Bu möhtəşəm sualtı hasilat sistemi Xəzərdə bir ilkdir və bp-nin dünya miqyasında istismar etdiyi ən böyük sualtı hasilat sistemidir.
- **Biz hazırda onu daha da genişləndiririk**.
- Quyu proqramımız üzrə işlər də irəliləməkdədir.
- Planlaşdırılmış 26 quyudan artıq 21-i qazılıb, 19-u isə tamamlanıb.
- Onlardan dörd cinah üzrə 14-ü artıq istismardadır.
- Bu il biz daha üç quyunu istismara verməyi, o cümlədən qalan beşinci cinahı - şərq-şimal cinahını işə salmağı planlaşdırırıq.
- Bu, Cənub Qaz Dəhlizi vasitəsilə ötürülən hazırkı həcmləri daha da artırmağa kömək edəcək.

**4-cü slayd – Gələcəyə hədəflənmə**

- **Şahdəniz və Cənub Qaz Dəhlizi şübhəsiz ki, bu günün, həm də sabahın gündəmində olacaq.**
- Hər iki layihənin xeyli genişlənmə imkanları mövcüddur.
- Qaz təchizatına tələbatın bu qədər böyük olduğu indiki dövrdə genişlənmə mövzusu daha da aktuallaşıb.
- Cənub Qaz Dəhlizi elə layihələndirilib ki, onun ilkin ötürücülük gücü lazım olduğu halda və vaxtda artırıla bilsin.
- Hazırda SOCAR və digər tərəfdaşlarımızla birlikdə Avropaya qaz təchizatını artırmaq üçün bundan necə istifadə edə biləcəyimizi nəzərdən keçiririk.
- Bundan əlavə, biz **yeni mümkün qaz mənbələrini də araşdırırıq**.

- Hazırda istismarda olan məhsuldar layların altında daha çox qaz tapmaq məqsədilə bu yaxınlarda **Şahdəniz yatağında yeni kəşfiyyat quyusu qazmağa başlamışıq**.
- Həmçinin, istismarda olan neft yatağının altındakı dərin qaz laylarında kəşfiyyat aparmaq üçün **ilk AÇG platforması olan Çıraqdan qiymətləndirmə quyusuna başlamışıq**.
- Eyni zamanda, biz enerji təminatı üçün qazdan istifadə etmək əvəzinə əməliyyatlarımızı necə elektrikləşdirə biləcəyimizə baxırıq.
- Səngəçal terminalının elektrikləşdirilməsi bu baxımdan yaxşı başlanğıc ola bilər.
- Terminalda qaz turbinləri əvəzinə elektrik şəbəkəsinə qoşulmaqla istifadə olunmayan qazı Cənub Qaz Dəhlizi ilə ixrac edə bilərik.
- Gördüyünüz kimi, qarşıda çoxlu möhtəşəm imkanlar var.

**Yekun**

- Beləliklə, icazə verin, çıxışımın əvvəlindəki fikirləri bir daha vurğulayım.
- **Həm Şahdəniz, həm də Cənub Qaz Dəhlizi enerji keçidinə və təchizat təhlükəsizliyinə əlavə töhfə verə bilər.**
- Azərbaycanın Cənub Qaz Dəhlizi vasitəsilə qaz təchizatını artırmaq üzrə böyük potensialı və strateji planları mövcuddur.
- Biz fəxr edirik ki, son 30 il ərzində SOCAR və digər tərəfdaşlarla birlikdə ölkənin ən iri enerji layihələrinin işlənməsinə dəstək vermişik.
- İndi isə uzunmüddətli və etibarlı tərəfdaş kimi biz Cənub Qaz Dəhlizi ilə əlaqədar planlarının həyata keçirilməsində Azərbaycana dəstəyimizi davam etdirməyə hazırıq.

– Diqqətinizə görə təşəkkür edirəm.

-SON-